# Bakı bulvarında bahar ovqatı

**Novruz bayramı günlərində Bakı Bulvarı şəhər sakinlərinin və qonaqların ən çox üz tutduğu məkanlardan birinə çevrilir. Dənizkənarı Bulvar İdarəsi bu il də bayrama özəl hazırlıqlar görərək ərazini Novruzun ruhuna uyğun şəkildə hazırlayıb.**





Bu dəfə bayram tərtibatı ənənəvi məkanda deyil, fərqli istiqamətdə, lalələrin xüsusi kompazisiya ilə əkildiyi yerə yaxın gəzinti zolağında qurulub. Azneft dairəsindən Qız Qalasına qədər olan hissə Novruz atributları ilə zənginləşdirilib. Burada bayramın rəmzi olan səməni, dörd çərşənbəni simvolizə edən gəlinciklər, milli ornamentlərlə bəzədilmiş dekorativ kompozisiyalar, nağıl qəhrəmanlarının heykəlcikləri, əlvan güllər, işıq instalasiyaları və digər Novruz rəmzləri quraşdırılıb. "Muğam üçlüyü", "Yuxayayan xanımlar", "Milli geyimli rəqqasələr" bu qəbildəndir. Möhtəşəm səməni, bəzəkli yumurtalar, bayraqcıqlar göz-könül oxşayır.

Bulvarda təşkil olunan bayram yarmarkası da ziyarətçilərə xüsusi ab-hava bəxş edir. Köşklərdə çeşidli şirniyyat məhsulları, sular satılır. Burada Novruza məxsus ləziz təamlarla yanaşı, tətbiqi sənət nümunələri, milli suvenirlər və əl işləri də təqdim olunur. Sevdiklərinə hədiyyə vermək istəyənlərin də geniş seçim imkanı var.

Bayramla əlaqədar istirahət günlərində Bakı bulvarında daha böyük qələbəlik olacaq. Musiqili proqramlar, milli idman oyunları, Novruzun simaları olan Keçəl, Kosa, Bahar qızı, axşam atəşfəşanlıqları şəhər sakinlərinə və turistlərə əsl bayram əhvalı yaşadacaq.

***Əli ƏLİYEV,***
***Elşən AĞALAR (foto)***
***XQ***







Xalq qəzeti .- 2025.- 19 mart (№ 60).- S.14.